AZƏRBAYCAN www.azerbaijan-news.az

# Şəhidin layiq görüldüyü medal ailəsinə təqdim edilib

Düşmən təxribatının qarşısını alarkən şəhid olan hərbi qulluqçu Ağadadaş Şahkərəm oğlu Şahkərəmovun layiq görüldüyü “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medal onun ailəsinə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, aprelin 27-də Siyəzəndəki Heydər Əliyev Mərkəzində təşkil olunan mərasimdə şəhidin valideynləri, Müdafiə Nazirliyinin, Siyəzən Rayon İcra Hakimiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları və əlilləri iştirak edib.

Tədbirdə çıxış edənlər Azərbaycan əsgərlərinin Vətənin müdafiəsində göstərdikləri şücaətdən bəhs ediblər. Şəhidlərin ruhuna dualar oxunub.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani şəhidin ailəsinə başsağlığı verərək bildirib ki, şəhid qanı tökülən torpaq heç vaxt düşmən tapdağında qala bilməz. Nazirliyin rəsmisi son döyüşlərdə Lələtəpə yüksəkliyinin düşməndən geri alınmasının ordumuzun digər işğal olunmuş əraziləri də geri qaytarmaq əzmindən xəbər verdiyini vurğulayıb. Cəbhə xəttində erməni silahlılarının bütün təxribat cəhdlərinin qarşısının Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındığı, düşmənə layiqli cavab verildiyi diqqətə çatdırılıb.



Abdulla Qurbani “Xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı şəhidin anası Zəminə Şahkərəmovaya təqdim edib.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov və başqaları mərasimdə çıxış edərək, siyəzənlilərin torpaqlarımızın müdafiəsində fəal iştirakından, Ağadadaş Şahkərəmovun döyüş yolundan, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıblar.

Şəhidin atası Şahkərəm Şahkərəmov oğlunun Vətən uğrunda həlak olduğuna görə fəxr etdiyini söyləyib.

2015-ci ilin avqust ayında şəhid olan Ağadadaş Şahkərəmov doğulub boya-başa çatdığı Siyəzənin Dağ Quşçu kəndində dəfn olunub.